

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 173 (21.074)

11 sentyabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da 1-ci Azərbaycan Beynəlxalq müdafiə sənayesi "ADEX 2014" sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan İsrailin müdafiə naziri Moşe Yaalonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli və hərbi-texniki əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Serbiyanın Baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bakının Nizami rayonundakı 32 və 12 nömrəli tam orta məktəblərdə yaradılan şəraitlə tanış olub.

* * *

Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı İstedadlar Təhsil Kompleksinin yeni binasında yaradılan şəraitlə tanış olub.



## Təhsil işçilərinin sentyabr konfransı keçirilmişdir



*Sentyabrın 10-da Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində muxtar respublikanın təhsil işçilərinin sentyabr konfransı keçirilmişdir. Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev 2013-2014-cü tədris ilinin yekunları və qarşıda duran vəzifələr barədə geniş məruzə ilə çıxış etmişdir.*

Qeyd olunmuşdur ki, bu gün muxtar respublikamızda təhsilə diqqət və qayğı ən yüksək səviyyədədir. Yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı bu qayğının bariz nümunəsidir. Hazırda Naxçıvan şəhərində 9 nömrəli, Şərur rayonunda Püsyan, Dizə, Kürkənd, Axura, Diyadin, Babək rayonunda Nehrəm kənd 2 nömrəli, Qahab, Naxışnərgiz, Ordubad rayonunda Ordubad şəhər 3 nömrəli, Aşağı Əylis, Culfa rayonunda Bənəniyar, Şahbuz rayonunda Şahbuz şəhər 2 nömrəli, Nursu, Kəngərli rayonunda Qarabağlar kənd 1 nömrəli tam orta məktəbləri, eyni zamanda Sədərək və Kəngərli Rayon Təhsil şöbələri üçün binalarda, Kəngərli rayonundakı Şahmat Məktəbinin binasında tikinti və ya əsaslı yenidənqurma işləri aparılır. Bunlarla yanaşı, Şərur rayonunda Cəlilkənd, Babək rayonunda Qoşadizə, Güznüt, Culfa rayonunda Şurud, Ordubad rayonunda internat və Şahbuz rayonunda Gömür, Güney Qışlaq kənd tam orta məktəb binaları əsaslı təmir olunur.

2013-2014-cü tədris ilində ali məktəblərə qəbul göstəriciləri haqqında məlumat verən Piri Nağıyev bildirmişdir ki, bu il məktəbi bitirən 3993 nəfərdən 3115-i ali və orta ixtisas məktəblərinə sənəd vermişdir. Əvvəlki illərin məzunları ilə birlikdə sənəd verənlərin ümumi sayı 5664 nəfər olmuşdur. Məzunlar arasında xüsusitəyinatlı ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 174 nəfər təşkil etmişdir. Muxtar respublikamızda həm orta ixtisas təhsili müəssisələrinə, həm də hərbi təhsil sahəsinə maraq xeyli artmışdır. 2014-2015-ci tədris ili üçün ümumi orta təhsil bazasından orta ixtisas məktəblərinə muxtar respublika üzrə sənəd verən 1760 nəfərdən 909-u cari ildə IX sinfi bitirənlər, Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün sənəd verən 1020 nəfərdən isə 990-ı muxtar respublika ümumtəhsil məktəblərinin şagirdləridir.

Qeyd olunmuşdur ki, bu il ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında iştirak edən məzunlardan 1725-i tələbə adını qazanmışdır. Muxtar respublikada ali təhsil müəssisələri üçün yaradılan şəraitin nəticəsidir ki, yüksək bal toplayan abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrində oxumağa daha çox üstünlük vermişlər. Belə ki, yüksək bal toplayan abituriyentlərdən 156 nəfəri Naxçıvan Dövlət Universitetinə qəbul olunmuşdur. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, məktəbi yüksək qiymətlərlə bitirən məzunlardan 14-ü "Qızıl", 13-ü isə "Gümüş" medala layiq görülmüşdür.

Sonra şəhər və rayon təhsil şöbələrinin müdirlərinin çıxışları dinlənilmişdir.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış etmişdir. Qeyd olunmuşdur ki, muxtar respublikamızda təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir. Son 10 ildə 150-yə yaxın məktəb binası tikilib istifadəyə verilmişdir. Hazırda bu sahədə işlər davam etdirilir. Təhsil müəssisələrinə 3409 dəst kompüter verilmiş, onların 84 faizi internetə qoşulmuş, 600-ə yaxın elektron lövhə quraşdırılmışdır.

Bildirilmişdir ki, muxtar respublikada elektron təhsilin tətbiqi, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılması, tədrisin əyaniliyi və səmərəliliyinin artırılması diqqətdə saxlanılır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il iyunun 20-də Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn vəzifələrin icrası məqsədilə muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqə yaradılır. Hazırda bununla bağlı test yoxlama işləri görülür. Bu işlərin sentyabrın 15-dək yekunlaşdırılması nəzərdə tutulur.

Rəhman Məmmədov təhsil müəssisələrinin fəaliyyətində bir sıra nöqsanların da mövcud olduğunu bildirərək demişdir ki, 2014-cü il iyulun 18-də "Təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri təhsil müəssisələrinin yaradılmış şəraitdən lazımi səviyyədə istifadə edə bilməməsini və işdə bir sıra nöqsanlara yol verdiklərini xüsusi vurğulamışdır.

"2013-cü ilin yekunları və qarşıda duran vəzifələr"lə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə təhsil müəssisələrinə tədrisin keyfiyyətinə nəzarətin gücləndirilməsi, dərslərin tədrisində əyaniliyin təmin edilməsi, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadəni təmin etmək məqsədilə müəllimlərlə sistemli işin aparılması, onların hazırlıq səviyyəsinin artırılmasının nəzarətə götürülməsi tapşırılmışdır. Buna baxmayaraq, yoxlamalar zamanı bəzi təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının qorunmaması, onların işlək vəziyyətdə saxlanılmaması hallarına rast gəlinmişdir. Təhsil müəssisələrinin bəzilərində informasiya-kommunikasiya sistemlərinin qorunması məqsədilə otaqlar bağlı saxlanılır, şagirdlər həmin otaqlara buraxılmır. Bu hallar muxtar respublikada aparılan təhsil siyasəti ilə tamamilə ziddiyyət təşkil edir.

Qeyd olunmuşdur ki, təhsil müəssisələrində müəllimlərin informasiya-kommunikasiya texnologiyalarından, xüsusən də elektron lövhələrdən istifadəsi də tələb olunan səviyyədə deyil. Öz üzərində işləməyən, dərs üçün əlavə materiallar axtarmayan, ümumiyyətlə, dərsə hazırlıqsız gələn müəllimlər hələ də mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 20 iyun 2014-cü il tarixli Sərəncamının icrası təhsil müəssisələrində müəllimlərin elektron lövhələrdən istifadə bacarığını və internet xətlərinin işlək vəziyyətdə saxlanılmasını aktuallaşdırır. Pedaqoji işçilər informasiya-kommunikasiya texnologiyalarından, internet resursları və onların tədrisdə tətbiqi imkanlarından daha da səmərəli istifadə etməli, tədris proqramlarına interaktiv təhsillə bağlı mövzular salınmalıdır. Qeyd olunanlar məktəb direktorlarını düşündürməli, zəruri tədbirlər görülməlidir.

Müəllimlərin vəzifəsi dərs deməklə bitməməlidir. Müəllim daim iş yerində, yəni məktəbdə olmalıdır. Təhsil müəssisələrində iş rejimi ikinövbəli təşkil edilməlidir. Birinci növbə dərslərin keçilməsini, ikinci növbə isə dərsdən sonrakı hazırlıq və dərnək məşğələlərini əhatə etməlidir. Buna xüsusi diqqət yetirilməli, şagirdlər dərsdən sonrakı məşğələlərə cəlb edilməlidirlər.

Bədən tərbiyəsi və hərbi hazırlıq dərslərinin təşkilindəki nöqsanlardan da danışan Rəhman Məmmədov bildirmişdir ki, bədən tərbiyəsi dərslərində idman formalarından, hərbi hazırlıq dərslərində isə əyani vəsaitlərdən istifadə düzgün təşkil olunmur. Müəllim və şagirdlərin dərsə davamiyyətində də nöqsanlara yol verilir. Təhsil müəssisələrində vahid geyim forması tətbiq olunur. Təəssüf ki, aparılan yoxlamalar zamanı bəzi təhsil müəssisələrində həm müəllimlərin, həm də şagirdlərin geyim formasına əməl etməmələri aşkar olunmuşdur. Müəyyən olunmuş geyim formasından düzgün istifadə mütəmadi nəzarətdə saxlanılmalıdır.

Sonda qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və ümumtəhsil müəssisələrinin pedaqoji kollektivləri göstərilən qayğının müqabilində daha səylə çalışmalı, öz işlərini şagirdlərin bilik, bacarıq və vərdişlərinin yüksəldilməsi istiqamətində qurmalıdırlar.

Konfransa təhsil naziri Piri Nağıyev yekun vurmuşdur.

*Sentyabr ayının 10-da Babək Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Zeynəddin kəndində təbii qazdan, sudan, elektrik və ya istilik enerjisindən düzgün istifadə qaydalarına, həmçinin "Ətraf mühitin qorunması sağlam həyatımızın başlıca amillərindəndir" mövzusuna həsr olunmuş tədbir keçirilib. Tədbiri Zeynəddin kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Səfər Şükürov açıb, tədbirin mahiyyəti barədə iştirakçılara məlumat verib.*

## Hüquqi maarifləndirmə tədbirləri davam etdirilir

Tədbirdə Babək rayon prokurorunun müavini, kiçik ədliyyə müşaviri Kənan Seyidov "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanması inzibati və cinayət məsuliyyəti yaradır" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, böyük dövlət qayğısı nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunub. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Ona görə də hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir. Kənan Seyidov qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə sakinlərə məlumat verib.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslində əksini tapan "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" maddəsi ilə cinayət qanunvericiliyimizdə bir sıra əməllər cinayət kimi təsbit edilib. Həmçinin Azərbaycan Respublikası Mülki Prossesual Məcəlləsinin 276.2.8-ci maddəsinə əsasən, məişətdə istifadə edilmiş təbii qaz, su, elektrik və ya istilik enerjisinin haqqının ödənilmədiyi hallarda kreditorun tələbi ilə borcun ödənilməsi məqsədilə kreditorun ərizəsinə əsasən məhkəmə tərəfindən məhkəmə əmri çıxarılır. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 101-ci maddəsində isə su obyektlərindən və sudan istifadə qaydalarının pozulmasına görə inzibati məsuliyyət və belə inzibati xətaları törədən fiziki, hüquqi və vəzifəli şəxslər barəsində inzibati cərimələr nəzərdə tutulub.

Sonra Babək rayon prokurorunun böyük köməkçisi, ikinci dərəcəli hüquqşünas Bayram Sadıxov çıxış edərək bildirib ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilib, təbiətin qorunması sahəsində mühüm addımlar atılıb. Nəzərə çatdırılıb ki, ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biridir və bu iş hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Bildirilib ki, ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindəki "Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar" fəslində, ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Ekoloji cinayətlər" adlanan 28-ci fəslində öz əksini tapıb. Bayram Sadıxov qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə sakinlərə məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***90 illik muxtariyyət tariximizin sonuncu 10 illiyində şəhər statusu alan Şahbuzdakı yeniləşmə indi göz oxşayır. Yüksəliş, tərəqqi bu yeniliklərin sayını günlər keçdikcə çoxaldır. Bir-birindən yaraşıqlı binalar, abad küçələr, parklarla yanaşı, təmizlik, səliqə-sahman şəhərin ümumi mənzərəsinə ayrı bir gözəllik bəxş edib. "Günü-gündən böyüyən, gözəlləşən, yeniləşən bu diyardan doymaq olarmı?" düşüncəsi ilə yaşayan şahbuzlular bu yurd yerinə indi daha möhkəm tellərlə bağlanıblar.***

*Naxçıvan Muxtar Respublikası – 90*

# Şahbuz – dünəndən bu günə

*90 illik muxtariyyət tariximizin son 20 ilində Şahbuz rayonu sürətli inkişaf yolu keçərək bugünkü yüksəlişə çatdı. Ən böyük uğur isə Şahbuz qəsəbəsinə elə bu inkişaf sayəsində şəhər statusunun verilməsidir*

***"Azərbaycanda bütün bölgələrdə sürətli inkişaf gedir. Bizim maddi imkanlarımız artır və istəyirik ki, bu imkanlardan səmərəli istifadə edək; Azərbaycan üçün vacib olan məsələlər öz həllini tapsın, bütün bölgələrdə inkişaf daha da sürətlə getsin"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyələrini iş prinsipinə çevirən bu yurd yerinin insanları hər bir işi ürəklə görürlər. Onlar rayonun şəhər, qəsəbə və kəndlərinin yeniləşməsi, gözəlləşməsi üçün qurub-yaradır, qoruqçu, keşikçi, yenilikçi kimi bütün imkanlarından səmərəli istifadə edirlər.

Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarına əsasən tikilib istifadəyə verilən onlarla yeni sosial obyektlər, kənd mərkəzləri, inzibati və məktəb binaları, yollar, körpülər, istehsal müəssisələri və başqa infrastruktur sahələri bu gün rayon sakinlərinin istifadəsindədir. Elə buna görə də yeddi-



Şahbuz şəhərindən görünüş



Aşağı Qışlaq kəndindən görünüş

yaşlı şəhərin bu günədək keçdiyi inkişaf yolundan ürəkdolusu danışmaq olar. Çünki 70 illik sovet imperiyası dövründə və ondan sonrakı keçid mərhələsində gözdənuzaq qalan bu rayonun kəndləri də özü kimi ömrü keçmiş bir qocanı xatırladırdı. Nimdaş binalar, yararsız tikililər, çala-çökək yollar, daşlı-çınqıllı səkilər və tikan-qanqal basmış çöllər, əkilməyən torpaqlar bir gözdağına çevrilmişdi ötən əsrdə. Heç kəsdə bu görüntünün dəyişəcəyinə, nəinki kəndlərdə, hətta rayon mərkəzində belə hansısa bir yeniliyin yaradılacağına ümid qalmamışdı. Təbii gözəlliklərlə dillər əzbəri olan Şahbuz rayonuna gələn qonaqlar da gördükləri mənzərədən təəssüf hissi keçirirdilər. O dövrdə bölgəsindən asılı olmayaraq, hər bir Azərbaycan kəndinin mənzərəsi kimi, Şahbuz rayonunun da kəndləri elə eyni problemlə, eyni ahənglə və eyni ab-hava ilə zamanı tarixə verirdilər. Həmin dövrdə mərkəzi qəzetlərdən birinin əməkdaşının Şahbuz rayonuna gəlməsi və onun səfər təəssüratlarının əsasını təşkil edən rayon haqqında fikirlərinin yer aldığı qəzet məqaləsindən bir parçanı hörmətli oxucuların diqqətinə çatdırmaqla son 20 ildə rayonun hansı səviyyədə inkişafını bir daha göz önündə canlandırmaq istəyirəm.

***Həmin məqalədən:*** "Şahbuz rayonunda, eşitdiyimə görə, bir-birindən gözəl, doyumsuz təbiət mənzərələrinə malik, bir-birinə bənzəməyən dağ kəndləri çoxdur. Elə buna görə də bu rayona üz tutub o dağ kəndlərində olmaq mənim üçün bir arzuya çevrilmişdi. Ancaq onu da eşitmişdim ki, buludların qaş-qabağı tutulanda bu kəndlərə gedən yollar, demək olar ki, bağlanır. Ona görə də Şahbuza avqustun axırlarında gəldim ki, maşınla kəndlərə qalxa bilək. Rayonda olarkən bütün kəndlərin təbiət abidəsi olduğunu bildirsələr də, bu kəndlərdən ancaq yolunun münasib olanını, yəni uzaq olsa da, ən rahat olanını seçməyi məsləhət bildilər. Mən isə bunun fərqinə varmadan dəniz səviyyəsindən çox yüksəkdə yerləşən Kükü kəndinə getmək istədim. Yol boyu bir neçə kəndi keçəndən sonra yol yoxuşa dikəldi. Mənimlə birgə olan rayon qəzetinin əməkdaşı öz-özünə danışırmış kimi astaca dedi:

– Hə, indi bu sərt yoxuşları qalxmağa oğul istəyirəm.

Onu da qeyd edim ki, rayon rəhbərliyi tərəfindən bizə ayrılan "QAZ-69" markalı təzə maşının sərt yoxuşları asanlıqla qalxacağına əmin idim. Elə bu arxayınlıqla yol yoldaşımla söhbət etməyə başlasam da, getdikcə daralan nasaz kənd yolunun vahiməsi məni qorxutmağa başladı. Başımı nə qədər söhbətə qatmaq istəsəm də, yolun vahiməsini unudum deyə, o yan, bu yandan söz salsam da, yola baxdıqca nəfəsim kəsilir, oturacağın dəstəklərindən daha bərk-bərk yapışaraq yerimdə dikəlir və sanki divar kimi yamaca dırmaşan maşının yükünü yüngülləşdirməyə çalışırdım. Ensiz, dar yol döngələrlə müşayiət olunduğundan, həmçinin yolun bir tərəfinin dərin sıldırım olması üzündən istər-istəməz vahimələnirdim. Torpaq yolun yağış sularından yuyulmuş hissələrində maşının təkərləri sanki buz üstündəymiş kimi sürüşür, istiqamətini dəyişirdi. Qulaqlarım uğuldayırdı. Elə bildim, neçə saatdır, yol gedirik. Yoxuşa qalxan yol isə bitmək bilmirdi. Və beləcə, gərgin bir vəziyyətdə Allaha üz tutub sağ-salamat bu kəndə yetişmək diləyini təkrarlaya-təkrarlaya dağların əhatəsində yerləşən Kükü kəndinə çatdıq.

Hava birdən-birə dəyişir. Bakının nəfəs almaq mümkün olmayan avqust bürküsündən sonra adam belə bir sərinliyə düşəcəyini ağlına da gətirmir. O anda düşündüm ki, heyif ki, belə bir havası, suyu, təbii mənzərələri olan kəndin adicə bir rahat maşın yolu belə, yoxdur. Hava getdikcə sərinləşməyə, biz isə üşüməyə başladıq. Amma kəklikotunun, biçənəklərin ətri dolan könlüm elə bil ki, dünyaya baxmaq üçün ən yaxşı yer olan bu ucalıqdan dağa dönmüşdü. Yolun qırağındakı kolların dibindən pırıltı ilə uçan kəkliklər, bildirçinlər, sərin dağ mehindən yırğalanan otlar, çiçəklər adama dünyanın bütün dərdlərini unutdururdu. Amma kəndə doğru irəlilədikcə yenə də təəssüf hissi məni öz ağuşuna alırdı. Bütün başqa kəndlərimiz kimi, Kükündə də bir solğunluq, sakit bir yaşam və yetim bir sükut kəndə hakim kəsilmişdi. Kənddə qarşımıza çıxan ahıllar və yaşlı insanlar bizi çox mehribanlıqla salamlayır və çay-çörəyə dəvət edirdilər. Daşlı-çınqıllı kənd yolunun



Kükü kənd tam orta məktəbi

döngəsində qabağımıza atın cilovundan tutmuş bir kişi çıxdı. Atın üstündə isə 10-12 yaşlarında bir uşaq oturmuşdu. Kələ-kötür məhəllə yolu dar olduğundan sürücü maşını saxladı. Çöhrəsindən sağlamlıq, gümrahlıq yağan ağsaqqal bizi salamlayır və sonra gülə-gülə deyir: "Biz ikiyik, atımız bir". Əvvəl bu fikri anlamasaq da, kişiyə yanımızda yer verib yol yoldaşı olduq. Söhbətə nərdivan qoyan kənd adamı sanki uzun illərdən bəri ürəyini boşaltmağa axtardığı bir adamı tapmışdı. Həm gileyli, həm incik, həm də təəssüf hissi ilə fikirlərini bildirərək arada üzümə baxan ağsaqqal sualımı gözləmədən sözə başladı. "Rahat yaşamağımıza imkan vermirlər. Gördüyünüz kimi, bu yolla harayasa satmağa mal aparmaq, qazanc eləmək, yaxşı yaşamaq mümkün deyil. Hərə öz başını saxlayır. Kimdir, bizi yadına salan. Öz ağsaqqalı, öz bulağı, öz yaylağı, öz dəlisi, öz igidi olan kənd elə öz hesabına yaşayır. Baxan yox, maraqlanan yox. Yolumuz da, körpümüz də, suyumuz da, əkin-biçinimiz də özümüzə aiddir. Kənddə oturmağa bir yer belə, yoxdur ki, torpaqdan baş qaldıranda gününün heç olmazsa, bir neçə saatını tay-tuşunla orada keçirəsən.

Kəndimizdə cəmi bir telefon olan ev var ki, hayımızda da, vayımızda da o qapını döyürük. O da işləyə, işləməyə. Xəstələnəni, yıxılanı nə bir xəstəxanaya, nə bir həkimə çatdıra bilirik – yol-iriz, maşın dərdindən. Allah ümidinə yaşadığımız kənddən cavanlarımız üz çevirib. Çünki bağımızdan, bağatımızdan, malımızdan, heyvanımızdan götürdüyümüz məhsulun da artıq qalanını nə satmağa yer, nə də aparmağa maşın tapa bilirik. Ona görə də hər kəs özünə lazım olan qədərini istehsal edir. Kənd sovetinin adı var, özü yoxdu. Uçuq-sökük bir neçə binada guya mədəniyyət evi, klub, xəstəxana fəaliyyət göstərir. Amma biz nə o binalarda adam, nə də onların qapısını açıq görmüşük. İndi, ay qonaq qardaş, sən de görək, biz Allah ümidinə yaşayırıq, ya yox?.."

Dərdli yoldaşımın giley-güzar dolu fikirləri məni də öz təsiri altına aldı. Üz tutduğum ünvanlar – kənd orta məktəbi (əgər buna məktəb demək olardısa), mədəniyyət müəssisələri, xəstəxana öz görkəmi ilə burada heç bir işin olmadığından xəbər verirdi. Kəndin ümumi görkəmində bir atılmışlıq, unudulmuşluq var idi ki, bu da onun evlərindən, yolundan, küçəsindən bəlli olurdu. Görəsən, bu qədər təbii gözəllikləri və sərvətləri ilə gözoxşayan kəndlərimiz niyə unudulub, yaddan çıxıb? Dəniz səviyyəsindən 2000 metrə qədər yüksəklikdə olan Kükü kəndi kimi, Şahbuz rayonunun istər mərkəzində, istərsə də başqa kəndlərində gözoxşayan nə bir tikili gördüm, nə bir yenilik, nə də bir rəvanlıq. Yol boyu gördüyüm və ürəyimi ağrıdan bir mənzərəni unuda bilmirəm. Boynu vurulmuş adamı xatırladan ağac kötükləri, kəsilmiş kollar, qurumuş ağaclar təbiətə də biganəliyin, laqeydliyin göstəricisi kimi ürək ağrıdırdı. Yol boyu təbii qanunauyğunluqla ikibir, üçbir başbaşa vermiş cır ağaclardan başqa nə bir yaşıllığa, nə də cavan tinglərə rast gəldim. Onda öz-özümə sual verdim ki, görəsən, yurdlarımıza, kəndlərimizə və onun əsrarəngiz sərvətlərinə nə vaxtsa sahib çıxan olacaqmı?.."

Bu qəzet məqaləsi 1991-ci ildə işıq üzü görüb. Hər birimiz razılaşarıq ki, həmin dövrdə deyilənlərdən qat-qat artıq problemlər var idi kəndlərimizdə. Ötən 20 il ərzində həmin kəndlərimiz və Şahbuz şəhərinin özü az qala saat-saat dəyişməyə, yeniləşməyə başladı. Çünki həmkarımın arzuladığı kimi kəndimizə, şəhərimizə, təbiətimizə və sərvətlərimizə bir vətəndaş, bir insan və ən əsası bir lider kimi sahib çıxan şəxsiyyətlər oldu; öz qayğısını, diqqətini yurd yerlərimizdən əsirgəmədi. El arasında deyərlər ki, gözəllik ağacı qədirbilən insanın zəhmət təri ilə yaşayır. Bu mənada deyə bilərik ki, muxtar respublikamızda Heydər Əliyev ideyalarına sədaqəti ilə hər birimizə nümunə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük həssaslıqla və istəklə kəndlərimizin sosial-iqtisadi inkişafına diqqət göstərməsi yenidənqurma siyasətinin ən ucqar dağ kəndlərini belə, qısa zamanda öz ağuşuna almasına səbəb oldu. Nəticə göz önündədir. Kükü də, Ağbulaq da, Şada da, Nursu da, Keçili də və rayonumuzun bütün kəndləri də indi bu siyasət nəticəsində həm sakinlərin, həm də qonaqların sevimli yurd yerlərinə çevrilib. Rəvan yollar bu kəndlərə şaxələnib dağlara sarı yüksəldikcə adamın ürəyi dağa




dönür gördüklərindən. Kükünün o dar, qorxulu, yöndəmsiz kənd yolundan indi əsər-əlamət qalmayıb. Müasir tələblər səviyyəsində qurulan yeni müasir yolun o kəndə çatdırdığı insanlar kənddə ucalan üçmərtəbə binaların gözəlliyinə heyran qalırlar. İndi yeni infrastruktur sahələrinin, kənd və xidmət mərkəzlərinin fəaliyyət göstərdiyi kəndlərimiz sırasına daxil olan Kükü 90 illik muxtariyyət tariximizdə özünün intibah dövrünü yaşayır.

***Görülən işlər, həyata keçirilən tədbirlər indi ölkəmizin müxtəlif yerlərindən Şahbuz rayonuna gələn qonaqları heyran edir. Onlar ağızdolusu tərif edərək kəndlərimizin yeniləşməsinə və bu qədər işin 20 illik zaman diliminə sığmasına inana bilmirlər. Bəli, yenidənqurma siyasətinin böyük vüsətlə həyata keçirildiyi muxtar respublikamızda 20 illik muxtariyyət dövrünün kəndləri öz görünüşü ilə insanları gördüklərinə inandırdı. Deməli, yaxşıya, gözələ sahib olmaq üçün, birinci növbədə, insanda sahiblik hissi olmalıdır.***

**Şəhla NƏBİYEVA**

# Abidələrimizdə yaşayan qədim tariximiz



***Qədim sivilizasiya mərkəzlərindən biri olan Naxçıvan diyarı arxeoloji abidələrlə zəngindir. Onlar həm yazıyaqədərki, həm də yazının meydana çıxmasından sonrakı tariximizi öyrənmək üçün əvəzsiz mənbələrdir. Abidələrimizin tədqiqi zamanı əldə olunmuş elmi nəticələr nəinki Azərbaycan, eləcə də dünya arxeologiyasının öyrənilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir. Naxçıvan Muxtar Respublikasının ərazisindəki Qazma, Kilid, Daşqala mağaraları və digər Daş dövrünün abidələri Naxçıvanın ilk insan məskənlərindən biri olduğunu sübut edir. Bu abidələrdən tapılan fauna və flora qalıqları, müxtəlif formalı əmək alətləri və digər arxeoloji materiallar Naxçıvanda Daş dövrünün bitki və heyvanat aləmi ilə yanaşı, insanların həyat tərzi, məşğuliyyət sahələri haqqında da məlumatlar verir. Qazma mağarasından tapılan sümük qalıqlarının əksəriyyətinin iri heyvanlara məxsus olması göstərir ki, Mustye mədəniyyəti dövründə (eramızdan 120-100-40-35 min il bundan əvvəl) bu abidədə məskunlaşmış insanların həyatında ovçuluq xüsusi yer tutmuşdur. Oradan əldə olunmuş işlənmiş daş və sümük materiallar Naxçıvanda daşişləmə və sümükişləmə sənətkarlıq sahələrinin tarixinin qədim olduğunu da sübut edir.***



Ovçular təpəsi abidəsindən son dövrlərdə eramızdan 500-300 min il bundan əvvələ, Alt Paleolit dövrünə aid yeni əmək alətlərinin tapılması sübut edir ki, Naxçıvanda ilkin məskunlaşmanın, insanların bu ərazidə yaşamağa başlamalarının tarixi həmin dövrdən başlanır. Gəmiqayadakı qayaüstü təsvirlər, piktoqrafik işarələr tarixi baxımdan böyük elmi əhəmiyyət daşıyır və Anadolunun qədim incəsənət abidələri ilə sıx bağlılıq təşkil edərək tarixən bu ərazidə qədim türk etnoslarının yaşadığını sübut edir. Bu abidədəki qayaüstü təsvirlər Kür-Araz, Boyalıqablar, Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən tapılan arxeoloji materiallarla bağlılıq təşkil edərək Naxçıvanın qədim və zəngin tarixinin müxtəlif dövrlərini əks etdirir. Naxçıvandakı arxeoloji abidələrdə aparılan tədqiqatlar zamanı yalnız Azərbaycanın deyil, həmçinin Cənubi Qafqazın Neolit, Eneolit, Tunc və Erkən Dəmir dövrü abidələrinin dövrləşdirilməsi üçün mühüm elmi əhəmiyyət daşıyan nəticələr əldə olunmuşdur. I Kültəpə arxeoloji abidəsindən tapılmış müxtəlif növ taxıl növləri və onlara məxsus əmək alətləri Eneolit dövründə Naxçıvanda əkinçilik mədəniyyətinin inkişaf etdiyini, Naxçıvanın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri olduğunu sübut edir. Naxçıvanda Eneolit dövrünə aid maraqlı arxeoloji materiallar I Kültəpə ilə yanaşı, Ovçular təpəsi, Xələc, I Maxta, Sədərək, Zirincli və digər abidələrin tədqiqi zamanı da aşkar edilmişdir. Ovçular təpəsindən körük ucluğunun, Zirinclidən yastı baltalar tökmək üçün qəlibin, I Kültəpə abidəsindən müxtəlif metal əşyaların tapılması Eneolit dövründə Naxçıvanda metallurgiya və metalişləmə sahəsində yerli istehsalın formalaşmağa başladığını göstərir. I Kültəpə abidəsinin VIII tikinti qatından aşkar edilmiş və ritual məqsədlə istifadə olunmuş ocaqların bənzərləri Şərqi Anadolunun Neolit və Eneolit abidələrindən də aşkarlanmışdır. I Kültəpə abidəsinin Eneolit dövrünə aid təbəqəsindən aşkar olunmuş sağ və ya sol böyrü üstə dəfnetmə qədim Şumer, Ubeyd mədəniyyətində geniş yayılmışdır. Yaşayış yerinin Eneolit dövrü təbəqəsindən tapılmış Xələftipli keramika və firuzə bəzək əşyaları bilavasitə həmin dövrdə Naxçıvanla İkiçayarası arasındakı iqtisadi-mədəni əlaqələrdən xəbər verir.

I və II Kültəpə abidələrindəki daş təməl üzərində çiy kərpicdən, yaxud möhrədən olan tikililər Cənubi Qafqazın bir çox abidələri ilə yanaşı, Urmiya hövzəsinin, Şimali Mesapotamiyanın qədim arxitekturaları ilə bənzərlik təşkil edir. Plovdağda aşkar edilmiş Erkən Tunc dövrünün yaşayış və təsərrüfat tikililəri, Ovçular təpəsi, I Maxta Kültəpəsi, Xələc abidələrindən tapılmış Proto Kür-Araz keramikası, Oğlanqaladan əldə olunmuş saray qalıqları, sütun altlıqları və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçası Naxçıvanın qədim və zəngin tarixindən xəbər verir. Ovçular təpəsi, I Maxta Kültəpəsi, Xələc, Ərəbyengicə abidələrindən tapılmış Proto Kür-Araz keramikası Naxçıvanda Kür-Araz mədəniyyətinin formalaşması tarixinin qədim olduğunu sübut edir. Tədqiqatçılar Ovçular təpəsindən götürülən kömür analizinə əsasən, abidənin eradan əvvəl 4335-3980-ci illərə aid olduğunu qeyd edirlər. Xələcin Son Eneolit keramikası eradan əvvəl 4300-3800-cü illərə aid edilir. Naxçıvandakı arxeoloji abidələrdən Proto Kür-Araz keramikasının tapılması faktı sübut edir ki, bu ərazidə Kür-Araz mədəniyyətinin formalaşmasının tarixi qədimdir. Naxçıvan Kür-Araz mədəniyyətinin əsas mərkəzlərindən biridir. Oğlanqalada aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, bu abidə Şərur düzənliyini əhatə edən, Atropatena dövründə mühüm inzibati mərkəzə çevrilən, özünəməxsus yazı sisteminə malik yerli krallığın mərkəzi olmuşdur. Duzdağda aparılan arxeoloji araşdırmalar zamanı abidədən tapılan daş əmək alətləri və gil qabların öyrənilməsi nəticəsində oranın dünyanın ən qədim duz mədənlərindən biri olduğu, Naxçıvanda mədənçiliyin tarixinin eradan əvvəl V minilliyin ikinci yarısından başlandığı müəyyən edilmişdir. Duzdağdan Son Eneolit və Tunc dövrlərinə aid gil qablar I və II Kültəpə abidələrində olduğu kimi daş əmək alətləri ilə birlikdə aşkar edilmişdir.

Naxçıvandakı Erkən Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi zamanı Maxtadan tapılan metal istehsalı ilə bağlı daş qəlib və metalın ilkin əridilməsi üçün istifadə olunan ocaq maraqlı arxeoloji materiallardan olub, Naxçıvanın qədim tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb etməkdədir. Bunun səbəbi ondan ibarətdir ki, həmin tapıntıya qədər Naxçıvandakı Kür-Araz mədəniyyətinə aid abidələrdən daş qəlib aşkar edilməmişdir; metalişləmə alətləri, körük ucluğu, metal emalı ilə bağlı ocaqlar və gil qəlib tapılmışdır. Onlar Erkən Tunc dövründə Naxçıvanda metallurgiyanın inkişaf etdiyini göstərən arxeoloji materiallar kimi tariximizin öyrənilməsində mühüm elmi əhəmiyyət daşıyırlar. Maxta abidəsindən tapılmış Erkən Tunc dövrünə aid metal istehsalı ilə bağlı daş qəlib və metalın ilkin əridilməsi üçün istifadə olunan ocaq onu göstərir ki, bu dövrdə Naxçıvanda metallurgiyanın inkişafında qeyd olunan yaşayış yeri də mühüm yer tutmuş, orada metal istehsalının bütün mərhələləri icra olunmuşdur. II Kültəpə, Şahtaxtı, Qızılburun, Nəhəcir və digər arxeoloji abidələrin tədqiqi nəticəsində Naxçıvanın Boyalıqablar mədəniyyətinin əsas mərkəzlərindən biri olduğu, beş min il bundan əvvəl Naxçıvanda şəhərtipli yaşayış yerlərinin salındığı və şəhərsalma mədəniyyətinin formalaşdığı sübut edilmişdir. II Kültəpədəki yaşayış yerinin küçələrinə daş döşənməsi, çirkab suların şəhərdən çıxarılması üçün burada müəyyən kanalların olması eradan əvvəl III minillikdə Naxçıvanda şəhərsalma mədəniyyətinin əsas xüsusiyyətlərindən biri olan təmizlik sisteminin olduğunu sübut edir. Naxçıvandakı şəhərtipli yaşayış yerlərində tikililərin küçələr boyunca salınması onların, bir qayda olaraq, müəyyən plan əsasında tikildiyini göstərir. II Kültəpə abidəsindən tapılan dulusçuluq məhəlləsi və mükəmməl quruluşlu dulus kürələr, içərisi boya ilə dolu olan küpələr, bütöv boyalı qablar Orta Tunc dövründə II Kültəpənin Naxçıvanın mühüm dulusçuluq mərkəzi, Boyalıqablar mədəniyyətinin isə əsas istehsal ocağı olduğunu sübut edir.

***Naxçıvan Muxtar Respublikasının ərazisində qədim dövrlə yanaşı, orta əsrlər dövrünə də aid çoxlu abidələr mövcuddur. Tarixin canlı şahidi olan, onun daş yaddaşına çevrilən abidələrimizin hər birində zəngin mədəniyyətimiz yaşayır. Bu gün abidələrimizə böyük uzaqgörənliklə dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, onlar əsaslı təmir və bərpa olunur, bir çox abidələrimiz tarixi qoruq sırasına daxil edilir. Mədəniyyətimizi, abidələrimizi qoruyub saxlamaq şəhər mədəniyyətinin yaradıcıları olmuş əcdadlarımızın xələfləri kimi müasir nəslin qarşısında duran ən müqəddəs vəzifələrdəndir. Hər birimiz çalışmalıyıq ki, bu vəzifənin öhdəsindən layiqincə gələk.***

**Toğrul XƏLİLOV**
***tarix üzrə fəlsəfə doktoru***

***XIX əsrin sonu, XX əsrin əvvəllərində ümumazərbaycan naminə intişar tapan mütərəqqi ideyaların daşıyıcılarından biri də Naxçıvan mədəni mühiti idi. Bu mühit ölkədə başladılan maarifçi hərəkatı yeni əlamət və keyfiyyətlərlə zənginləşdirmiş, Azərbaycan elminə, mədəniyyətinə dəyərli simalar bəxş etmişdir. O dövrdə qədim diyarda dünyəvi təhsil verən milli məktəblərin yaradılmasında əhəmiyyətli addımlar atılmış, görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqi Ordubadda "Əxtər" (1892), Naxçıvan şəhərində "Tərbiyə" (1894) məktəblərini açmışdır.***

*Məhəmməd Tağı Sidqi – 160*

# Heykəli-insana bir nəzər

M.T.Sidqinin pedaqoji fəaliyyəti kimi, yaradıcılığı da yeniliklər məcmusudur. Onun yaradıcılığında İslam dini, Vətən və millət anlayışları xüsusi yer tutmuşdur. M.T.Sidqi çalışırdı ki, insanlar İslam dininin mahiyyətini səthi deyil, daha ağıllı şəkildə dərk etsinlər. Bu isə yalnız elm öyrənməklə mümkündür. Əgər müsəlmanlar İslamı dərindən öyrənsələr, görərlər ki, burada elm və mərifət sahibi olmaq insanoğlunun ən vacib əməlləri sırasındadır; məgər İslam dininin müqəddəs kitabı "Qurani-Kərim"in ilk əmri bu deyilmi: "Oxu, səni yaradan rəbbinin adı ilə oxu". Görkəmli pedaqoq bir də ona görə İslamın olduğu kimi əxz edilməsinə çalışırdı ki, insanlar bir həqiqəti də bilsinlər: zamanın mütərəqqi ideyalarının tələblərinə uyğunlaşmağı dinimiz nəinki pisləyir, əksinə təqdir edir. Sidqinin fikrincə, bu da ondan irəli gəlir ki, İslam daha çox insanı, hər bir fərdi düşünür.

M.T.Sidqi bu cür düşüncələrini "Heykəli-insana bir nəzər" əsərində daha dolğun şəkildə ifadə etmişdir. Həmin məqaləsində o, ilk növbədə, Allahın yaratdığı insanın necə əsrarəngiz olmasına toxunmuşdur. Onun fikrincə, Allah insanı elə bir yüksək, ali keyfiyyətdə yaratmışdır ki, o, bəzən dəmirdən də möhkəm, bəzən də gül yarpağından da nazikdir. Belə ki, insan başına ard-arda gələn çox ağır müsibətlərə, bəlalara zəhmət çəkib dözdüyü halda, münasib olmayan acı bir sözə dözməyərək pərişan olub özündən çıxar. Yaxud insan var, öz nəfsinin ucbatından baiskarlıq edər, insan da var ki, bir millətin hifzindən ötrü özünü ölümə verməyi səadət hesab edər.

Vətən və millət məsələsinə gəlincə, M.T.Sidqi yazırdı ki, artıq dünyada hər məmləkət əhalisi millət adını alıb və o məmləkəti "Vətən" adlandırır. Hər bir millətin milli hüquqları, milli hökuməti vardır. Bu mənada müsəlman xalqları da millət və vətən anlayışlarını dərk etməli, müasir dövrün tələblərinə qarşı çıxmaqdansa, onunla uzlaşma yolları tapmalıdır. Tapmalıdır ki, həmvətənlərinin də müəyyən əraziyə malik məmləkəti, Vətəni olsun. Sidqiyə görə, müsəlman dünyasının əsas problemi hələ də keçmiş mədəniyyətimizlə fəxr edərək bu günü və gələcəyimizi düşünə bilməməyimizdir. İslam-Şərq mədəniyyəti ilə müqayisədə Avropa-Qərb millətləri bir tərəfdən milli və müasir dövlət yaradır, digər tərəfdən həmin ölkələrdə iqtisadiyyat və texnologiya sürətlə inkişaf edir. Maarif carçısının fikrincə, Qərb ölkələri mövcud nailiyyətləri dünyəvi elmləri öyrənməklə əldə ediblər. Müsəlman dünyası da bu uğurlara çatmaq üçün, ilk növbədə, dünyəvi elmləri öyrənməlidir. Bunun üçün isə əlifba islahatları aparılmalı, yenitipli dünyəvi məktəblər açılmalı və qəzetlər nəşr olunmalıdır.

Əgər dünyanın bir qismində – Avropada Adəm övladları inkişafa və tərəqqiyə sahib çıxırlarsa – dəmir yolları çəkir, teleqraflar, təyyarələr icad edirlərsə, deməli, o biri qismində – Şərqdə də bütün bunları edə bilərlər. Bütün bunlar, yəni elm kəsb etməklə tərəqqiyə çatmaq İslam dinində də müsəlmanlara əmr olunmaqdadır. Sidqi yazırdı: "Özünə mənzil qərar verdiyi qaranlıq mağaraları və sonra ağacdan və daşdan emal olunan dəkkə və talvarları xəyalına gətirəndə bir tərəfdən Fransa bürcünə (Eyfel qülləsi – S.M.) baxıb, bir səmtdə London şəhərinin dörd yüz əlli arşın ucalıqda büllur imarətini görüb və Paris şəhərinin idareyi-bələdiyyəsinin bir otağının on dörd min adam vüsət verəcəyini eşidib, bu təsəvvüratı bir xabi-xəyal fərc edəcəkdir".

M.T.Sidqi belə bir qənaətə gəlir ki, Qərb ölkələri bütün bu nailiyyətləri dünyəvi elmləri öyrənməklə əldə etmişlər. Əgər müsəlman dünyası da bu uğurlara çatmaq istəyirsə, ilk növbədə, dünyəvi elmləri öyrənməlidir.

Qeyd edək ki, Məhəmməd Tağı Sidqi özü bir neçə dəfə qəzet nəşr etməyə cəhd göstərsə də, çar Rusiyasının məmurları buna əngəl olmuşlar. O, yalnız ömrünün sonuncu ilində – 1903-cü ildə Tiflisdə türkcə nəşr olunan "Şərqi-Rus" qəzetində bir neçə məqalə ilə çıxış etməyə nail olur. Onun əksər məqalələri ölümündən sonra başqa qəzet və jurnallarda nəşr edilib.

M.T.Sidqi yaşadığı dövrün eybəcərliklərinə qarşı mübarizədə, xüsusilə müsəlmanların maariflənməsində qəzetin də əvəzedilməz rol oynadığını başa düşürdü. Böyük mütəfəkkiri ən çox narahat edən isə müsəlmanların əksəriyyətinin başqalarının sözləri ilə oturub-durması, öz ağlı və dərrakəsi ilə hərəkət etməyə qeyrət etməməsi idi. Onun fikrincə, müsəlmanlar dərindən ağıl etsələr, görərlər ki, nə qəzet, nə məktəb, nə teleqraf, nə təyyarələr, nə də başqa yeni texnologiyalar şeytan əməlidir və onları günah hesab etmək cahil kimsələr olan nadanların işidir. Ona görə də müsəlmanlar əcnəbi millətlərin inkişafını doğru dəyərləndirməli və öz həyatlarında bundan istifadə etməlidirlər: "Xüsusən məişət əmrlərində hər bir cəhətdən onların (digər millətlərin – S.M.) elmi və istinbatı və hər bir kəşfiyyat və məlumatı bizlərdən artıqdır. Əgər belə deyilsə, bəs nə üçün onlar bizləri hər bir işdə ötüb keçiblər? Məişət ləvazimatlarının hər bir cüziyyatında bizləri özlərinə möhtac ediblər? Hətta iynədən tutmuş pambıq və əmmamədən kəfənə kimi onlara ehtiyacımız vardır?"

Maarif fədaisini təəssüfləndirən məqamlardan biri də o idi ki, Qafqaz müsəlmanlarının mütəfəkkirləri əcnəbi millətlərin əldə etdikləri uğurlardan öz millətlərinin rifahı və tərəqqisi üçün yararlanmaq, mövcud olan bir neçə qəzetlərində cəmiyyəti maarifləndirmək əvəzinə, bir-birləri ilə yola getmir, hətta mütərəqqi ideyaları öz şəxsi münasibətləri naminə təkzib edirlər.

***Məhəmməd Tağı Sidqi bir tərəfdən müsəlman ölkələrində müasirləşməyin vacibliyini görməklə yanaşı, digər tərəfdən bunun təqlidi xarakter daşımaması üçün milli və dini keyfiyyətlərdən çıxış edilməsinin vacibliyini düşünərək bunun təşəbbüskarı və şəxsən icraçısı olub. Ən önəmlisi odur ki, M.T.Sidqi bütün bunları əldə etmək üçün milli birliyin vacibliyini görüb və bu yolda özünün hansısa əzab-əziyyətlərə düçar olacağına irəlicədən razılıq verib – xalqının maarif və elm fədaisi oğlu kimi.***

**Səyyar MƏMMƏDOV**

Jurnalist araşdırması

# Xidmət sektoru müasir Naxçıvanın inkişaf səviyyəsindən geri qalır

*Yaxşı xatırlayıram ki, 20 il bundan əvvəl muxtar respublikada ictimai iaşə obyektləri çox məhdud sayda idi. Həmin ünvanlarda xidmətin səviyyəsi də xoşagələn deyildi. XXI əsr Naxçıvanda bu sahəyə də yeni ab-hava gətirdi. Muxtar respublikanın müxtəlif ünvanlarında müasir yeməkxanalar, kafelər fəaliyyət göstərməyə başladı. Onu da deyək ki, yeməkxanalara heç də adi ictimai iaşə obyekti kimi baxmaq olmaz. Çünki hər bir region haqqında ilkin təəssürat yaradan məkanlardan biri də məhz həmin ünvanlardır. Milli mətbəx mədəniyyətimiz barədə təəssürat buralarda formalaşır. Bəs bu gün həmin obyektlərdə vəziyyət necədir? İnsanlara xidmətin səviyyəsi qənaətbəxşdirmi? Bu obyektlərdə milli mətbəximiz necə təbliğ olunur?*

### *Xidmət sektorundakı “yüksək xidmət”*

Bu gün muxtar respublikada ofisiant mədəniyyəti çox aşağı səviyyədədir. Unutmaq olmaz ki, ofisiantlığın özü də bir sənətdir. Bəzi ölkələrin təhsil ocaqlarında bu sənət də tədris olunur. Kurslarda iştirak etməyən ofisiantlar işə qəbul edilmirlər. Ancaq muxtar respublikamızda hər sahədə əsl yüksəliş, intibah olduğu halda, belə xidmət sahələrində hələ də axsayırıq. Səbəbləri isə çoxdur. Öz işində davamlı olmayan, təcrübəsiz, müştərilərinin sevimlisinə çevrilməyən qeyri-peşəkar, yəni hardan gəldi çağırılan belə “xidmət işçilərlə” hansısa keyfiyyətdən danışmağa dəyməz. Bu xidmətlə normal, peşəkar insanlar məşğul olmalıdırlar. Əlbəttə ki, bu insanların ali təhsilli olması önəmli şərt olmasa da, ən azından, müvafiq sahə üzrə hazırlıq kursu keçmələri şərtdir. Təəssüf ki, sahibkarlar öz işinin peşəkarı olan xidməti heyətin hazırlanmasında maraqlı deyillər. Naxçıvanda peşəkar restoran işçilərinin hazırlanması üçün hər cür şərait var. Naxçıvan Regional Peşə Tədris Mərkəzində kurslar təşkil etməklə bu sahədə işləri qaydasına qoymaq olar. Kiçik bir araşdırma apardıqdan sonra öyrəndik ki, indiyədək “Təbriz” hotelindən başqa, heç bir xidmət obyekti belə kursların təşkili üçün Naxçıvan Regional Peşə Tədris Mərkəzinə müraciət etməyib.

### *Milli mətbəximiz necə təbliğ olunur?*

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, hər il muxtar respublikaya 350-400 minə yaxın turist gəlir. Bəs bu turistlərə milli mətbəximizi necə təbliğ edirik? Bu suala müsbət cavab vermək çox çətindir. Naxçıvan şəhərinin mərkəzində fəaliyyət göstərən yeməkxanaların əksəriyyətində başqa ölkələrin mətbəxi təbliğ olunur. Bunun əleyhinə deyilik. Ancaq hər şeydən əvvəl, bizim öz milli mətbəximiz ön sırada dayanmalıdır. Məlumdur ki, milli mətbəximiz öz zənginliyi ilə qonşu xalqların mətbəxinə də böyük təsir göstərib. Mənfur qonşularımız ermənilər, sadəcə, torpaqlarımıza, mədəniyyətimizə, tariximizə, musiqimizə deyil, hətta mətbəximizə belə, şərik çıxır, onu özününküləşdirməyə çalışırlar. Buna görə də bu gün hər birimiz çalışmalıyıq ki, milli mətbəximiz unudulmasın, təbliğ olunsun. Müasir dünyada milli adət-ənənələrin qorunub saxlanılması ən vacib amilə çevrilmişdir. Çünki onların hər birində xalqın tarixi yaşayır. Bu tarixi yaşatmaq isə öz xalqını sevən hər bir insanın vətəndaşlıq borcudur. Qürurla qeyd etməliyik ki, bu gün bu istiqamətdə muxtar respublikamızda xeyli iş görülüb. “Naxçıvan mətbəxi” Kulinariya Mərkəzinin yaradılması və “Naxçıvan mətbəxi” adlı kitabın nəşr olunması milli mətbəx nümunələrimizin təbliği baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Ancaq hər şeyi də dövlətdən gözləmək olmaz. Sahibkarlarımız da bu işdə təəssübkeşlik göstərməlidirlər. Qısa araşdırma zamanı heç bir yeməkxanada “Naxçıvan mətbəxi” adlı kitaba rast gəlmədik. Unutmayaq ki, Naxçıvana gələn turistlər və qonaqlar, ilk olaraq, milli mətbəximizlə maraqlanırlar. Ötən il Amerika Birləşmiş Ştatlarının məşhur jurnallarının birində dərc olunan yazıda Naxçıvan mətbəxinin zənginliyini və üstünlüklərini xüsusi qeyd etmişdilər. Təəssüf ki, bu gün xarici qonaqların yüksək qiymət verdikləri milli yeməklərimizə yeməkxanalarımızda çox az rast gəlirik. Yeməklərimizlə yanaşı, şirniyyatlarımıza da. Nə üçün Ordubad paxlavası ictimai iaşə obyektlərində müştərilərə təklif olunmasın? Bir-birindən ləziz və dadlı mürəbbələrimiz də yaddan çıxıb. Yeməkxanalarımıza üz tutsaq, onların çoxunda özünü başqa bir məkanda hiss edərsən. Yəni Naxçıvan mətbəxindən əsər-əlamət yoxdur. Bu sahədə aidiyyəti qurumların da üzərinə böyük vəzifələr düşür. Yəni onlar yeməkxanalarda milli mətbəximizin təbliği ilə bağlı hansısa tədbir həyata keçirməyi birdəfəlik unudublar.

### *Bəzi yeməkxanalarda natəmizlik baş-alıb gedir...*

Gəldiyimiz qənaət bəzi yeməkxanalarda, kafelərdə fotomüxbirimizlə araşdırmalar apardığımız zaman yarandı. “Ləziz yeməklər” adlanan yeməkxanaya üz tutmağımız səbəbsiz deyildi. Həm yeməkxananın adı bizi bu ünvana səsləyirdi, həm də qəzetimizin ötən il dərc olunan nömrələrinin birində bu obyektin natəmizliyi barədə məqalə verilmişdi. Düşündük ki, yazıdan sonra burada hər şey qaydasında olar. İçəri daxil olarkən bizi həşəratlar “qarşıladı”. Burada natəmizlik baş alıb gedir. Yemək hazırlayanların xüsusi geyim formasında olmamaları hər şeyi açıq-aydın deyir. Bu hal Naxçıvan şəhərindəki Nizami küçəsində yerləşən, əvvəllər “Milli yeməklər” adı ilə tanınan yeməkxanada da hökm sürür. Yararsız bir binada yerləşən bu yeməkxanada stol və stulların natəmizliyi burada xidmətin hansı səviyyədə olduğunu ilk andan müştəriyə göstərir. Demək olar ki, xidmət sıfır səviyyədədir. Maraqlıdır, görəsən, bu yeməkxananın fəaliyyətinə hansı standartlara görə icazə verilib. Ötən il də bu yeməkxanada müşahidə aparmışdıq. Mətbəx elə vəziyyətdə idi ki, bunu sözlə ifadə etməkdə çətinlik çəkirəm. Buranın xidmətindən istifadə edən vətəndaşlar, görəsən, nə düşünürlər? Onlar nə üçün bilərəkdən öz sağlamlıqlarını təhlükə qarşısında qoyurlar? Fikrimizcə, antisanitariyanın olduğu bu yeməkxanaya üz tutan vətəndaşların buranın mətbəxindən xəbəri olsa, onlar bir daha bu yeməkxananın qapısını döyməzlər. Belə ictimai iaşə obyektlərinə cavabdeh olan şəxslər də yaxşı bilirlər ki, burada antisanitariya baş alıb gedir. Acınacaqlı hal həm də odur ki, haqqında bəhs etdiyimiz yeməkxanalar şəhərimizin mərkəzində yerləşir.

### *“Dost qapısı” kafesi, yoxsa sağlamlığımıza düşmən kəsilən qapı?*

Həmin gün “Dost qapısı”na da üz tutduq. Onu da deyək ki, yeməkxana çox gözəl dizayna malikdir. Ancaq yeməkxanada gördüyümüz mənzərələri sözlə ifadə etmək çətindir. Ofisiantların geydikləri formalar səliqəsiz halda idi. Hətta bəzilərinin geyiminə adamın baxmağı gəlmirdi. Yaşlarını soruşdum. 17 və 18 yaşlarında olan bu ofisiantların necə xidmət göstərməsi ilk baxışdan şübhə doğurur. Üzlərindəki ifadəni isə demirəm. Ofisiant, hər şeydən əvvəl, gələn müştərini mehribanlıqla, nəzakətlə qarşılamalıdır. Şərq aləmində belə bir söz var: gülümsəyə bilmirsənsə, dükan açma. Əfsuslar olsun ki, bu dəyərli kəlamdan bizim yeməkxanalarda bixəbərdirlər. Əslində, bu, ayrı bir həngamədir. Əsəbi halda bir nəfər bizi qarşıladı. Özünü təqdim etməsə də, obyektə cavabdeh şəxs olduğu açıq-aydın görünürdü. Qapısının üstündə yazılıb vurulan “Təndir kababı” yazısı diqqətimizi çəkdi. Elə bir az aralıda yerləşən təndirə yaxınlaşırıq. Təndirin yanında iki nəfər mişarla odun doğrayırdı. Toz-torpaq bürümüş ərazi tullantı ilə dolu idi. Özünü bizə təqdim etməyən bu şəxsdən buranın niyə belə halda olduğunu soruşduqda əsəbi halda bizdən oradan uzaqlaşmağımızı tələb etdi. Maşınların yuyulduğu və toz-torpağın hökm sürdüyü ərazidə yerləşən təndirin ətrafı heç də kabab bişirilməsi üçün uyğun yer deyil. Onu da deyim ki, təndir kababının, sadəcə, adı var.

Yolumuzu “Gəlinqaya” kafesindən saldıq. Kafenin sahibi, yəqin ki, bura gələcəyimizdən xəbər tutmuşdu. Bizi elə qapıda qarşıladı. Jurnalist olduğumuzu bilirmiş. Ona görə də gəlişimizin məqsədindən xəbərdar imiş. Kafedə olan vəziyyəti görməməyimiz üçün bizə içəri daxil olmağa icazə vermədi. Yeməkxananın vəziyyəti yaxşı olsa idi, yəqin ki, kafe sahibi belə tələsə düşməzdi.

### *Nümunəvi obyektlər də yox deyil...*

Bu ilin əvvəlindən fəaliyyətə başlayan “Park AVM”-ə üz tuturuq. İnsafən, bu yeməkxananın digər kafelərə nisbətən fəaliyyəti o qədər də pis deyil. Ancaq ofisiant xidməti çox aşağı səviyyədədir. Hər həftə bu yeməkxanada başqa-başqa ofisiantlar çalışır. Bu “ofisiantlar” harada və nəyə xidmət etdiklərini bilmirlər. Onlardan söz qoparmağı bacarana mükafat düşür. Sifariş verdiyin acısız yeməyin əvəzinə acılısı gətirilsə, heç də təəccüblənməyin.

Nümunəvi yeməkxanalar sırasında “Badaşqan” restoranının adını xüsusi qeyd etmək olar. Ofisiantların insanı gülərüzlə qarşılaması, aşpazların səliqəli formada olması xoş təəssürat yaradır. Burada xidmət yüksək səviyyədədir. Yeməkxanada vətəndaşların çox olması da buradakı yüksək səviyyəli xidmətə görədir. Sevindirici haldır ki, “Zümrüd” kafedə də milli mətbəximiz təbliğ olunur. Düzdür, menyuda bunlar göstərilməsə də, açıq soyuducuda Ordubad paxlavasını, mürəbbələri və sairi görmək olar.

“Söyüdlük” adlanan yeməkxanada da olduq. Bu yeməkxanadakı natəmizlik haqqında yazı keçən nömrələrin birində oxucularımıza təqdim olunmuşdu. Ancaq bu dəfə onun əksini müşahidə etdik.

### *Xidmət obyektlərinin daimi işçiləri yoxdur*

Digər bir vacib məqam isə restoranlarda, yeməkxanalarda fəaliyyət göstərən işçilərlə əmək müqaviləsinin bağlanmamasıdır. Demək olar ki, restoran və yeməkxanaların əksəriyyətində bu problem var. Bu problemi həll etmək asan məsələ deyil. Çünki sözügedən obyektlərin daimi işçiləri yoxdur.

Bu araşdırmalarımızdan sonra Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinə və Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə müraciət etdik. Həmin təşkilatlar mütəmadi olaraq bu ünvanlarda yoxlamalar apardıqlarını, aktlar tərtib etdiklərini bildirdilər. Ancaq bizim gördüyümüz faktlar bunun əksini deyir.

### *Son söz yerinə...*

**Bu gün muxtar respublikamızda bütün sahələr sürətlə inkişaf edir. Şəhər və kəndlərimizin təmizliyi, səliqəsi göz oxşayır. Hamı həyata keçirilən tədbirlərdən razılıqla danışır. Ancaq restoran və yeməkxanalarda göstərilən xidmətlər müasir Naxçıvanın inkişaf səviyyəsindən geri qalır. Belə obyektlərin binası, yerləşdiyi ərazi müasir tələblərə cavab versə də, göstərilən xidmətlər bu səviyyədə deyil. Bəzi ictimai iaşə obyektlərində müşahidə etdiyimiz nöqsanlara sahibkarlar nə üçün göz yumurlar? Yuxarıda da qeyd etdiyimiz kimi, insanda yaxşı və ya pis təəssürat həm də belə obyektlərdə yaranır. Ona görə də hər bir sahibkar düşünməlidir ki, restoran və yeməkxanalar Naxçıvanımız, milli mətbəximiz, xidmət mədəniyyətimiz haqqında bilgilərin gələn qonaqlara çatdırıldığı yerlərdən biridir. Bunun üçün onlar böyük məsuliyyət daşıyırlar. Gəlin bu barədə düşünək...**

✍ **Sara ƏZİMOVA**

## Sağlamlıq imkanları məhdud uşaqların valideynləri ilə növbəti görüş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 10-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində serebral iflic xəstəliyi olan uşaqların valideynləri ilə maarifləndirici görüş keçirilib. Tədbirin təşkil edilməsində əsas məqsəd valideynlərə bu kateqoriyadan olan uşaqlarla evdə davranışa, onların təlim-tərbiyəsinin təşkilinə və ünsiyyətqurma bacarıqlarının inkişaf etdirilməsinə dair məsləhət xidmətinin göstərilməsidir.

Tədbirdə Naxçıvan Əlillərin Bərpa Mərkəzinin həkim nevropatoloq-psixoterapevti Rəfayil Orucov, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin müəllim-defektoloqu Çinarə Abbasova serebral iflic xəstəliyi olan uşaqların ailə üzvləri ilə psixoloji-mənəvi söhbət apardılar. Qeyd olunub ki, uşaq serebral iflici polietioloji xəstəlik olub, baş beyinin uşağın bətndaxili inkişafı dövründə, doğuş zamanı və ya doğuşdan sonra müxtəlif səbəblərlə zədələnməsi ilə yaranır. Xəstəlikdən əziyyət çəkənlərin çoxunda epileptik tutmalar, nitq qüsuru olur. Həmin uşaqlar gec oturur, onların durma və yerimələri ləngiyir.

Vurğulanıb ki, yeni doğulan uşaqların nevroloji müayinəsi aparılmalıdır. Müalicənin əsas istiqaməti reabilitasiya yönündə olub, fiziki bərpa tədbirlərindən ibarət olmalıdır. Belə ki, hərəkət funksiyalarının bərpa və inkişafında fizioterapevtik üsullarla müalicə (müalicəvi bədən tərbiyəsi, masaj, isti vanna, sensor kabinələr) mühüm əhəmiyyət kəsb edir. Dərmanla müalicə isə ehtiyac olduqda təyin edilir.

Sonda valideynləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Kəngərli rayonunun Qarabağlar icmasının tender komissiyası icma qrupunun hazırladığı “Elektrik sistemlərinin bərpası və genişləndirilməsi” adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki baza və insan resursları barədə məlumat*
* *Son üç ildə icra etdikləri işlər haqqında məlumat*
* *Maliyyə vəziyyəti barədə arayış*

Qeyd olunmuş sənədlər toplusunu 18 sentyabr 2014-cü il, saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Kəngərli rayonu, Qarabağlar kəndi tender komissiyası icma qrupunun sədri Kərəm Əsgərov***
***əlaqə telefonu: (051) 879-08-98***

## Elmi-praktik seminar

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin cari ilin iş planına uyğun olaraq, Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi və rayon mərkəzi xəstəxanalarının təcili yardım şöbələrində çalışan tibb işçilərinin peşə və bacarıqlarının artırılması, müvafiq tibbi avadanlıqlardan istifadə qaydalarının mənimsənilməsi məqsədilə kurslar davam etdirilir.

Naxçıvan Tibb Kollecində keçirilən növbəti elmi-praktik seminar zədələnmə və mövsümi xəstəliklər zamanı təcili tibbi yardımın təşkilinə həsr olunmuşdu. Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim-travmatoloqu Adil Məmmədov “Politravmalar zamanı təcili tibbi yardım, xəstələrin immobilizasiyası və daşınma qaydaları”, həmin xəstəxananın həkim anestezioloq-reanimatoloqu Elsevər Ağamalıyev “Zəhərli həşəratlar və ilansancmaları zamanı ilkin tibbi yardım tədbirləri” mövzularında məruzələr etmişlər. Mövzuya dair slaydlar nümayiş etdirilmiş, manekenlər üzərində praktik məşğələlər aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Allah rəhmət eləsin

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru Yasəmən Ramazanova və teatrın kollektivi Xalq artisti **İBRAHİM MƏMMƏDOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 783